| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL 559 Tarixi ədəbi abidələrin dili, 6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Magistr |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | dos. Elza Səmədova |
| | **E-mail:** | esemedova@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Dərs kitabları :**<br><br>N. Xuduyev, Azərbaycan ədəbi dil tarixi, Elm və təhsil nəş., Bakı, 2012<br>Elza Səmədli, Türkologiyaya giriş, Köhlən, Bakı, 2021,<br>Azərbaycan ədəbi dil tarixi, 4 ciltdə, AMEA, İ.Nəsimi aına Dilçilik İnstitutu, Lüöət və Ensklopediyalar, Bakı, 2007.<br>Ahmet Caferoglu. Türk dili tarihi; İstanbul, 1984.<br>T.Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili, Bakı, 1977<br>T.Hacıyev, Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü), Bakı, 1976<br>N.Cəfərov. XVIII əsr Azərbaycan ədəbi dili, dok. dis., Bakı, 1991, Azərbaycan ədəbi dili tarixi, «Elm»<br>Anna Marie Von Gabain, Qədim türk dilinin grammatikası,<br>Ahmet B. Ercilasun, Türk Lehçeleri Grameri, Akçağ yay. , Ankara 2007<br>Zeynep Korkmaz, Türkiye Türkçesi Şekil Bilgisi, TDK, Ank. 2004<br>https://books.google.az/books?id=lCzF996VTGUC&printsec=frontcover&hl=ru&source=gbs_ge_summary_r&cad=0#v=onepage&q&f=false<br><br>**Istifadə oluna biləcək digər mənbələr**<br>Əlisa Şükürlü, Orxun Yenisey Abidələrinin Dili<br>A.Von.Gabain, Eski Türkçenin Grameri, çev.M. Akalın, TDK yay.,Ankara 1988 | |

| | | | |
|---|---|---|---|
| **Tədris metodları** | Mühazirə | | + |
| | Qrup müzakirəsi | | + |
| | İnteraktiv | | + |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Mövzuya dair biblioqrafiya tərtibi | | 30 |
| | Final imtahanı | | 30 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |

| | |
|---|---|
| **Kursun təsviri** | Kursda ilk tarixi ədəbi mətnlərin dili, tarixi dövrlər üzrə bu ədəbi mətnlər arasındakı fonetik, morfolojik və leksik xüsusiyyətlər mətnlər üzərində müzakirə olunacaq, hər dövrə aid ədəbi mətnlərin original variantları üzərində fonetik, morfolojik və leksik təhlillər aparılacaq, müasir Azərbaycan türkcəsi ilə paralelliklər qurulacaqdır. Azərbaycan türkcəsinin də daxil olduğu türk |

| | |
|---|---|
| | dilinin ən qədim ədəbi mətnlərində oğuz, qıpçaq və qarluq qruplarının fonetik, morfolojik və leksik xüsusuiyyətləri mətn nümunələri üzərində təhlil ediləcəkdir. Kursda tarix öncəsi qədim mixi yazılarının araşdırmasına müGöytürk, uyğur, qaraxanlı dövrü ədəbi mətnləri, XIII- XIV əsrlərə aid qarışıq dilli əsərlər, XV-XVI əsrə aidədəbi mətnlər kursun planına daxildir. Eyni zamanda tələbələrin türk ləhcələrinin vahid bir dildən ayrılaraq, müxtəlif qollara ayrılması prosesi üzərində mühakimələr irəli sürərək, nəticə çıxarmaları və isbatlar ortaya qoymaq üçün qrup çalışmalarında fəal iştirakları təmin ediləcəkdir. |
| **Kursun məqsədləri** | 1. tarixi ədəbi mətnlərin dil xüsusiyyətləri baxımından tarixi dövrlərə ayırmaq;<br>2. tarixi ədəbi mətnlər arasında fonetik paralelliklər qura bilmək;<br>3. tarixi oğuz, tarixi qıpçaq və tarixi qarluq türk ləhcələrinin ortaq və fərqli xüsusiyyətlərini müəyyənləşdirmək,<br>4. tarixi türk ləhcələri arasında fonetik, morfolojik və leksik paralellik qura bilmək;<br>tarixi ədəbi mətnlərin dil xüsusiyyətlərindən yola çıxaraq türk ləhcələrinin vahid bir dildən ayrılaraq, müxtəlif qollara ayrılması prosesi üzərində mühakimələr irəli sürə bilmək. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Kursun sonunda tələbələrdə aşağıdakı bacarıqların inkişaf etdirilməsi gözlənilir:**<br><br>Tədqiqar aparma, təhliletmə, tətbiqetmə, şərhetmə, mühakiməetmə, nəticə çıxarma, problem həlletmə, səmərəli ünsiyyət qurma, təqdimatetmə, qrup şəklində işləmə, qrupu və özünüqiymətləndirmə. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Dərsin işlənmə forması:** fəal təlimin müxtəlif forma (məs. fərdi, qruplarla və cütlərlə iş ) və üsullarından (məs. müzakirə, mühazirə, beyin həmləsi, təqdimatlar vs.) istifadə ediləcəkdir.<br><br>**Davamiyyət və müzakirələrdə iştirak (10 %)**<br><br>Tələblərin hər dərsdə sillabusdakı mövzular üzrə elmi mınbələrin, oxu materiallarının oxuyaraq dərsə hazır gəlməsi, müxtəlif mənbələrdəki məlumatları şərh etməsi, müqayisə etməsi gözlənilir.<br><br>**Mövzuya dair biblioqrafiya tərtibi (10%)**<br><br>Tələbələr sillabusda göstərilən mövzular üzrə elmi məqalələrdən və monoqrafiylardan ibarət biblioqrafiya hazırlayacaqlar.<br><br>**Tapşırıqda** elmi məqalə və ya monoqrafiya haqqında biblioqrafik məlumatlar tam göstərilməlidir. **Giriş** abzasında Təqdiqat mözüsu, metodu və əldə edilən nəticələr izah edilməlidir. mövzu haqqında məlumat verilməlidir. Əsasən aşağıdakı sualları cavablandırmalıdır.<br>- *Nəyi təhlil edəcəyinizi ifadə edin.*<br>- *Mətnin qısa xülasəsini verin,*<br>- *Diqqətinizi çəkən məqamları ifadə edən tezis cümləsi yazın.*<br><br>**1. Əsas abzaslar -**<br>- *Hər bir abzasda oxuu materialından əldə etdiyiniz yeni məlumatlara dair fikirlərinizi ifadə edin*<br>- *Hər abzasın yeni əldə edilən məlumat haqqında olmasına xüsusi diqqət edin.*<br>- *Bu abzasda tədqiqat mövzusu haqqında öz fikirləriniz və arqumentlərinizi ifadə edin.*<br>- *Sitatlar gətirin.* |

| | |
|---|---|
| | 2. **Nəticə -**<br>- *bu materialdan nə öyrəndiyinizi ümumiləşdirin.*<br>- *məqalədə eldə edilən nəticəni ifadə edin,*<br>- *Mövzunun aktuallığına münasibət bildirin.*<br><br>Tapşırıq dekabr ayının ikinci həftəsi təqdim edilməlidir.<br><br>**Tədqiqat işinin tərtibatı:** Times New Roman şrifti ilə 14 ölçülü, sətirarası məsafə 1,5 olmaqla, sol kənardan 3 sm, yuxarı və aşağıdan 2 sm, sağ tərəfdən isə 1,5 sm boş yer saxlanılan A4 vərəqdə yazılır. Səhifə nömrələri vərəqlərin aşağı sağ küncündə qeyd olunur. Həcm ən az 5 səhifədən (ən az 3000 söz) ibarət mənbə və istinadlar göstərməklə elmi məqalə formatında hazırlanmalıdır. İstinadlar və mənbələrin göstərilməsində APA sistemi istifadə edilməlidir.<br>- Qapaq hissəsində tədqiqat mövzunun adı, magistrantın adı, soyadı, ata adı, elmi rəhbərin elmi dərəcəsi, adı, soyadı, ata adı, universitetin adı, logosu, hazırlandığı ay və il qeyd olunmalıdır.<br><br>**İmtahan haqqında:**<br><br>İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planınnda göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa dillərdə olan, mənbələrə də müraciət etmək lazımdır.<br><br>Aralıq imtahanın Final imtahanlarının hər ikisində imtahan tapşırıqları cavabı məhdudlaşdırılmış açıq suallar, mətnlər üzərində müqayisəli təhlil tipli suallardan ibarət ola bilər. İmtahanda əsas hissəsi semestr ərzində oxunacaq mətnlərin dil xüsusiyyətlərinin təhlilinə və nümunə mətnlərin dil xüsusuiyyətlərinin müqayisəli təhlilinə yönəlik tapşırıqlardan ibarət olacaqdır. Dekanlıqla razılaşdırılmaqla hər iki imtahan yerinə tələbələrin tarixi ədəbi mətnlərin təhlilinə dair hazırladıqları tapşırıqların bir hisssəsi imtahan balını əvəz edə bilər.<br><br>Tələbələrin mövzulara dair ədəbiyyat siyahısı tərtib etməsi və mövzuya uyğun tərtib etdikləri ədəbiyyatı refleksiya etmələri də imtahan tapşırıqları arasındadır. |

**Cədvəl**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | | Sillabusla və tədris qaydalarıyla tanışlıq. Sillabusun müzakirəsi, mənbələrlə tanışlıq və iş, tapşırıqların və tədqiqat mövzularının müzakirəsi<br><br>Azərbaycan tükcəsinin təşəkkül tarixi | N.Xuduyev, 2012,<br><br>Elza Səmədli, 2021<br><br>Z.Korkmaz,. 2004 s<br><br>Diaqnostik qiymətləndirmə üçün esse yazılması |
| 2 | | 1-ci mövzuya dair oxu materiallarının müzakirəsi<br><br>Azərbaycan tükcəsinin türk dili içindəki yeri. Türk dilinin inkişaf tarixi<br><br>Türk dilinin tarixi dövrləri, türk ləhcələrinin təsnifatı | N.Xuduyev, 2012,<br><br>Elza Səmədli, 2021<br><br>Z.Korkmaz,. 2004<br><br>A.B.Ercilasun, Ankara 2007 |

| | | | |
|---|---|---|---|
| | | Türk dilinin yakın ve uzak lehçeleri<br><br>Yakut və Çuvaş dilləri<br><br>Oğuz, Qıpcaq və Qarluq grubu türk ləhcələrinin təsnifatı | Mövzuya dair biblioqrafiya tərtibi |
| 3 | | Oxu materiallarının müzakirəsi<br><br>Qədim yazılı abidələrin dili, Azərbaycan coğrafyasında və Ön Asyada yazılı mənbələrdə, mixi yazılarında və digər tarixi mənbələrdə türk izləri) | Elza Səmədli, 2021<br><br>Z.Korkmaz,. 2004<br><br>N.Xuduyev, 2012,<br><br>Mövzuya dair biblioqrafiya tərtibi |
| 4-5 | | X əsrə qədərə olan ədəbi mətnlər və onlrın dil xüsusiyyətləri (Göytürk yazı dilinə aid tarixi mətnlər üzərində qrup işi)<br><br>X əsrə qədər olan əsərlərin dilində Oğuz türkcəsi elementləri | A.Von.Gabain 1988,<br><br>M.Ergin,İst. 2001, A.Von.Gabain 1988, Səmədli 2021, Orxun abbidələri və Uyğur mətnləriüzərində fonetik və morfolojik təhlil<br><br>Mövzuya dair biblioqrafiya tərtibi |
| 6-7 | | X əsrə qədər olan əsərlərin dilində Oğuz türkcəsi elementləri Tarixi Qıpcaq və Qarluq grubu türk ləhcələrinin fonetik xüsusiyyətləri (mətnlər üzərində iş) | Divanı luqatit türk və Kutadqu Bilik<br><br>Mətnləri üzərində təhlillər<br><br>Mövzuya dair biblioqrafiya tərtibi |
| | | Aralıq imtahanı | |
| 8-10 | | XIII-XIV əsr qarışıq dilli ədəbi əsələrin dil xüsusiyyətləri. Bu dövrə aid mətnlər, lügətlər və digər ədəbi əsasərlərin təhlili, mətn üzərində iş Mətn təhlili | N. Xuduyev, 2012,<br><br>(Lüğətlər, Nehcül feradis, Kıssasül Enbiyya və s. mətnlər üzərində iş<br><br>Mövzuya dair biblioqrafiya tərtibi |
| 10-12 | | XIV-XV əsrlərə aid ədəbi mətnlərin dil xüsusiyyətləri | Kitabi Dədə Qorqud üzərində fonetik, morfolojik, leksik təhlil, mətn üzərində iş |
| 12-13 | | XVII-XIX əsrlərə aid ədəbi mətnlərin dil xüsusiyyətləri | N. Xuduyev, 2012, |
| 14 | | XX əsr Azərbaycan mətbuatı və ədəbi dil normaları üzərinə olan müzakirələr. | N. Xuduyev, 2012,<br><br>Əlibəy Hüseynzadə, Üzeyr Hacıbəyli publisistikasına dair nümunələr |
| 15 | | Tədqiqat işlərinin təqdimatı | |
| 16 | | ***Final*** | |